# Junior Achievement Azərbaycan

## JUNIOR ACHIEVEMENT KİMDİR?

Ümumdünya JA (Junior Achievement) Təşkilatı dünyada praktiki və təcrubi proqramlar vasitəsilə gənclərə işə hazırlıq, sahibkarlıq qabiliyyəti və maliyyə bilikləri öyrədən ən iri təşkilatlardan biridir. Junior Achievement proqramları gənclərə vəsaitin yaradılması və səmərəli idarə edilməsi, cəmiyyətin tələbatına uyğun peşə seçimini, sahibkarlıq bacarıqlarının real həyatda tətbiq etməyi oyrətməklə, onları gələcək fəaliyyətə hazırlayır. Gənclər bu dərsləri mənimsəyərək və təcrübədən keçirməklə, yaşadıqları cəmiyyətin iqtisadi cəhətdən güclənməsinə köməklik etmiş olurlar.

## JUNIOR ACHIEVEMENT-İN MƏQSƏDİ

Dünya iqtisadiyyatında uğur qazanmaq üçün gəncləri ruhlandırmaq və hazırlamaqdır.

## PROQRAMIN NAİLİYYƏTLƏRİ

Proqramlarımız 250 orta məktəbdə, 10 peşə məktəbində, 4 ali məktəbdə və 14 icma mərkəzində həyata keçirilməklə, Azərbaycanın 26 regionu üzrə 60.000-dən cox şagird və 300-ə yaxın müəllim kontingentini əhatə edir.

## KÖNÜLLÜLƏR

JA könüllülərınə müxtəlif biznes sahəsində çalışan işgüzar adamlar, ali məktəb tələbələri və valideynlər daxildir. Bu sadiq adamlar təşkilatın özəyini təşkil edir.

## UĞURLAR

JAA təşkilatı proqramlarının effektivliyini qiymətləndirmək üçün müstəqil dəyərləndiriciləri cəlb edir. 2003-cü ildən başlayaraq, müstəqil dəyərləndiricilər JAA proqramlarının effektivliyinə və göstərdiyi təsirinə dair tədqiqatlar aparmışlar. Əldə edilən tapıntılar JAA təşkilatının bir çox mühüm sahəyə müsbət təsir göstərdiyini təsdiq edir. JAA məzunlarının 92%-i bu proqramlarda iştirak etməyən həmyaşıdlarından fərqli olaraq, karyera və sahibkarlıq fəaliyyətlərinə daha yaxşı hazırdırlar. 2007-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi 260 məktəbdə JAA proqramlarının həyata keçirilməsini təsdiq etmişdir. Həmçinin, həmin ildə Azərbaycanlı tələbələr "Qlobal Biznes" yarışında 69 ölkədən 1000 komanda arasında dünya üzrə 1-ci yeri əldə etdirlər. 2010-cu ildə JA təşkilatının Azərbaycanda keçirdiyi proqramların uğurları ABŞ-ın Ağ Evi tərəfindən seçilərək, ABŞ Prezidentinin "Sahibkarlıq üzrə Sammit"ində qeyd olunmuşdur.

## İDARƏ HEYƏTİ

Daniel Matthews (Baker & McKenzie) JA Azərbaycan təşkilatının Direktorlar Şurasının Sədri, Vüsal Xanlarov təşkilatın İcraçı Direktorudur. Junior Achievement Azərbaycan təşkilatının Direktorlar Şurası təşkilatın fəaliyyəti üçün səmərəli və strateji istiqamətlər müəyyən edən işgüzar liderlərdən ibarətdir.

## QISA TARİX

1998-ci ildən Azərbaycanda fəaliyyətə başlayan Junior Achievement Azərbaycan təşkilatı ictimai və korporativ donorların dəstəyi ilə ötən illər ərzində ölkənin minlərlə şagirdinə iqtisadiyyat və biznes sahəsi üzrə təlim keçmişdir. Bizim proqramlar gənclərin sahibkarlıq fəaliyyəti, maliyyə savadı, işə hazırlıq bacarıqları, biznesdə informasiya texnologiyaları, peşə üzrə təlimlər, biznes imkanlarının təkmilləşdirilməsi və tədris resurslarının yaradılması sahələrini əhatə edir.

## ÜMUMİ MƏLUMAT

Ümumdünya JA Təşkilatının baş qərargahı ABŞ-ın Kolorado Springs şəhərində yerləşir. Baş qərargah dünya üzrə 3.208 işçiyə strateji istiqamətləndirmə və liderlik sahəsində dəstək göstərir. Biznes, təhsil və ictimai liderlərdən ibarət olan direktorlar şurası yerli təmsilçilərə strateji istiqamətləndirmə üzrə köməklik göstərir.

Junior Achievement
A Member of JA Worldwide
Azerbaijan




## Dəyərlərimiz

- Gənclərin hədsiz imkanlarına olan etimad
- İşimizdə şövq, onun icra edilməsində səmimilik və üstünlük
- Əməkdaşlıq və tərəfdaşlıq qüvvəsinə olan inam
- Bazar iqtisadiyyatı və sahibkarlıq prinsiplərinə bağlılıq
- Bütün insanların istedadına, yaradıcı xüsusiyyətinə, gələcək perspektivlərinə və daxili aləminə olan hörmət individuals.
- Münasib praktiki təlimin tədrisi və təhrikedici qüvvəsinə əminlik

Müəlliflik hüququ © 2010 Junior Achievement Azərbaycan. Bütün hüquqlar qorunur.